

# Dövlət müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir!

25

El-obanın xoş gününə, təntənəli anlarına sevinc qatmaq istəyən hər kəs bu növrağın, bu sevincin içərisinə az da olsa öz payı, əldə olunan uğurları ilə gəlmək istəyir. Hazırda qeyd olunan bayram isə ümumilikdə heç nəyə bənzəməz. Xalqımız illərlə gözlədiyi və nəhayət vüsalına qovuşduğu müstəqillik adlanan qibləgahı ilə, belə demək mümkünsə, 25 ildir ki, bir köynəkdədir. Arxada qalan illərə nəzər yetirdikdə görürsən ki, nələrdən keçməmişik?! Düşmənimiz ermənilərlə ölüm-dirim savaşından tutmuş digər xarici qüvvələrin təhdidlərinə, daxili "vətənpərvər"lərin dövlət çevrilişi cəhdlərindən tutmuş dövlət başçısına, müxtəlif nüfuzlu şəxslərə qarşı edilən sui-qəsdlərə, ayrı-ayrı məkanlarda terror əməlləri və terrora cəhd hallarına kimi çox hadisənin canlı şahidi olmuşuq.



# Uğurları davamlı olan Zaqatala

Arxada qalan illər ərzində sosial-iqtisadi sahədə yaranan problemləri dəf edərək daha böyük nailiyyətlər qazanmağımız da əlamətdar hadisələrdəndir. Müasir Azərbaycanın iqtisadi inkişaf modeli isə bu gün dünyanın nüfuzlu beynəlxalq təşkilatları tərəfindən belə yüksək səviyyədə təqdir olunur.

Sözsüz ki, müstəqilliyimizin indiki həddə gəlib çatmasında, ölkəmizin dünyanın aparıcı dövlətlər və beynəlxalq təşkilatlar arasında söz sahibi olmasında ölkə rəhbərinin nüfuzu, yorulmadan çalışması böyük rol oynayıb.

Dövlət müstəqilliyimizin bərpası regionlarımızın inkişafına da əhəmiyyətli təsirini göstərib. Bu mənada şəhər və kənd mədəniyyətini özündə birləşdirən Zaqatala rayonunun öz yeri var. Rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə rəhbərlik etdiyi məkanın keçmişindən bugününə gələn yoluna ayna tutaraq deyir: - Zaqatalalılar hər zaman dövlətin yanında olan və dövlətçiliyi müdafiə edən insanlardır. Dövlət müstəqilliyinin ilk illərində digər rayonlarda olduğu kimi, burada da müəyyən ünsürlər idarəçiliyi öz iddialarına uyğun qurmağa cəhd etmişdilər. Həmin hərəkətlər isə həm insanları narazı salır, həm də rayonun iqtisadi potensialının dağılmasına yol açırdı. Təbii ki, belə bir vəziyyət uzun müddət davam edə bilməzdi. Beləliklə də ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən ölkənin siyasi hakimiyyətinə gəlməsi bütün ölkənin, o cümlədən də zaqatalalıların həyatlarına rahatlıq, gələcəklərinə inam yaratdı.

Ümumiyyətlə, zaqatalalılar bütün zamanlarda, o cümlədən ölkəmiz üçün ağır olan Qarabağ savaşının ən dəhşətli dövrlərində, hətta bu ilin aprel döyüşlərində qanları bahasına vətənə, xalqa bağlı olduqlarını təsdiqlədilər. Oxşar vəziyyət arxa cəbhədə də müşahidə olundu. İnsanlar öz zəhmətləri, məhsuldar fəaliyyətləri ilə ərzaq bolluğunun yaradılmasında nümunəvi olmaları ilə seçildilər. Hər il rayonumuzda milli müstəqilliyimizin bərpa olunduğu 18 oktyabr tarixi anılır, qeyd edilir. Bu il isə Prezident İlham Əliyevin 11 oktyabr 2016-cı il tarixdə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü münasibətilə imzaladığı sərəncam hər kəsdə sevinc doğurdu.

Ötən dövr ərzində ölkə başçısı düz 7 dəfə Zaqatalada olub. Hər səfərində də müxtəlif yönümlü həyati əhəmiyyətli layihələrin reallaşdırılmasına imzaladığı sərəncamlarla dəstək verib. Prezident İlham Əliyevin səfərlərindən biri zamanı söylədiyi aşağıdakı fikirlər diqqəti xüsusi cəlb edir: *"Zaqatalanın çox gözəl təbiəti vardır, görməli yerləri, tarixi və qədim memarlıq abidələri çoxdur. Mən çox istəyirəm ki, Azərbaycan vətəndaşları bunu görsünlər və ilk növbədə daxili turizm inkişaf etsin. Eyni zamanda xarici turistlər də gəlsinlər, görsünlər ki, Azərbaycanda nə qədər gözəl işlər gedir və necə səfalı, gözəl yerlər vardır".*

## İnfrastruktur layihələri cəlbediciliyi daha da artırır

Sosial-iqtisadi sahədə reallaşdırılan layihələr isə həm miqyasına, həm də əhəmiyyətinə görə cəlbedicidir. Bu baxımdan infrastruktur layihələri daha da əhəmiyyətlidir. Konkret faktlara müraciət edək. "Yevlax-Zaqatala-Gürcüstan Respublikası ilə dövlət sərhədi" magistral avtomobil yolunun Yuxarı Tala kəndi ərazisindən keçən hissəsinin genişləndirilməsi və yol kənarının abadlaşdırılması işləri aparılıb. Magistral avtomobil yolu ilə Qorağan-Qax-Zaqatala avtomobil yolunun kəsişməsində yeni yol qovşağı inşa edilib və ətraf ərazidə yaşıllaşdırma işləri görülərək abadlaşdırılıb. İkitərəfli yola keçid üçün yolun genişləndirilməsi məqsədilə 3500 metr uzunluğunda ikitərəfli istinad divarı və səki inşa edilib, istinad divarının təbii qaya daşı və kərpiclə üzlənməsi və laklanması işləri aparılıb. Beş ədəd avtobus dayanacağı inşa edilib. Müasir işıqlandırma sistemi quraşdırılıb və 6400 metr uzunluğunda bardür düzülüb. Avtomobil yoluna və piyada zolaqlarına asfalt örtük döşənib.

Rayonun yaşayış məntəqələrində enerji təminatının yaxşılaşdırılması məqsədilə Zaqatala Rayon Elektrik Şəbəkəsi tərəfindən 264 kilometr uzunluğunda müxtəlif gərginlikli hava elektrik verilişi xətləri əsaslı və cari təmir edilib. Paralel olaraq SİP kabel xəttinin, yeni məftilin çəkilməsi, 440 ədəd transformator məntəqəsinin əsaslı və cari təmir edilməsi, 93 ədəd yeni transformator məntəqəsinin quraşdırılması elektrik enerjisi verilişində dayanıqlığı və keyfiyyəti daha da artırıb.

Rayonun yaşayış məntəqələrində əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması sahəsində də işlər davam etdirilib. Belə ki, Zaqatala şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və gündəlik gücü 10 min kubmetr olan çirkab sutəmizləyici qurğular kompleksinin tikintisi işləri aparılıb.

Əhalinin təbii qazla təminatının yaxşılaşdırılması istiqamətində də xeyli iş görülüb. 125 mindən artıq əhalisi olan rayonun 61 yaşayış məntəqəsindən 29-u, yəni 47,5 faizi qazlaşdırılıb. Nəticədə Zaqatala Qaz İstismar Sahəsi üzrə abonentlərin ümumi sayı 20 min 468-ə çatdırılıb.

Ötən dövr ərzində rayonda Tala çayı üzərində uzunluğu 172 metr olan asma körpü, Muxaxçay üzərində uzunluğu 42 metr, Tala çayı üzərində uzunluğu 183 metr olan Mişleş körpüsü, Bəkməz, Zilban və Micqar çayları üzərində isə ümumi uzunluğu 720 metr olan 20 ədəd körpü inşa edilib. Şəhərin küçələrinə, respublika və yerli əhəmiyyətli avtomobil yollarına asfalt örtük çəkilib.

Müstəqillik dövründə rayonda əhaliyə poçt və rabitə xidmətlərinin yaxşılaşdırılması sahəsində müvafiq işlər aparılıb. İnternet və multimedia xidmətləri genişləndirilib. Zaqatala rayonunun elektron tipli ATS-lərə keçidlə əlaqədar şəhərin şimal-qərb yaşayış massivində, Gözbarax, Qımır, Yuxarı Çardaxlar, Yengiyan, Yolayrıc və Göyəm kəndlərində yeni binalar tikilib istifadəyə verilib. Bundan əlavə, 16 ədəd NGN tipli elektron ATS-lər quraşdırılıb. Bu gün rayon ərazisində Zaqatala Telekommunikasiya Qovşağı tərəfindən 22 min 718 nəfər abonentə telefon xidməti göstərilir. Bu da 1991-ci illə müqaisədə 17 min 118 abonent çoxdur. Rayon ərazisində 2006-cı ildən genişzolaqlı internet xidməti göstərilməsinə də başlanılıb. 2016-cı ildə buradakı abonentlərin sayı 10 min 554 nəfərə çatdırılıb.

## Aqrar sektor ərzaq təhlükəsizliyinə təminat verir

Son illər aqrar sektorda həyata keçirilmiş məqsədyönlü tədbirlər, həmçinin "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası ilə əlaqədar Zaqatalada 2008-2015-ci illərdə kənd təsərrüfatı məhsullarının istehsalı 53 milyon 477 min manat artaraq 110 milyon 650,7 min manata çatıb.




"2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası nəticəsində rayonda kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 2007-ci ilə nisbətən artaraq 31 min 53 hektar olub. Bunlara payızlıq taxıl sahəsi, qarğıdalı, paxlalılar, tütün, günəbaxan, kartof, tərəvəz, bostan və yem bitkilərinin əkin sahəsi daxildir.

Sahibkarlığa Kömək Milli Fondu tərəfindən "Zaqatala broyler" MMC-yə verilmiş güzəştli kredit hesabına Maqov kəndi ərazisində illik istehsal gücü 500 ton olan quş əti istehsalı müəssisəsi fəaliyyətə başlayıb.

Prezident İlham Əliyev "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası sahəsində əlavə tədbirlərin görülməsi məqsədilə 16 yanvar 2014-cü il tarixdə "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncam imzalayıb. Bu sərəncamın icrası ilə əlaqədar aqrar sahədə istehsalçıların və istehlakçıların maraqlarının qorunması və ərzaq bazarının səmərəli fəaliyyətinin təmin edilməsi üçün rayonda ötən ildən kənd təsərrüfatı məhsullarının satış yarmarkaları təşkil olunub ki, bu da süni qiymət artımının qarşısının alınmasında mühüm amilə çevrilib.





Taxılçılığı və toxumçuluğu inkişaf etdirmək məqsədilə rayonun Dağlı, Muxax, Göyəm, Yengiyan, Aşağı Tala, Mosul, Kəpənəkçi və Faldarlı kəndlərində yaradılmış 5 özəl toxumçuluq təsərrüfatı fəaliyyətini davam etdirib. Toxumçuluq təsərrüfatlarının taxıl sahələrində sort və növ alağının aparılmasına nəzarət edilib, yemləmə gübrəsinin kökdənkənar gübrələrdən istifadəsinin təşkili üçün əməli kömək göstərilib. Əvvəlki illərdən fərqli olaraq, toxumluq sahələrdə xəstəliklərin, zərərvericilərin müşahidə olunmasını nəzərə alaraq müvafiq mübarizə tədbirləri həyata keçirilib.

2013-cü ildə rayonda Bölgə Təcrübə Stansiyasına məxsus "Pərzivan" ərazisində müasir standartlara uyğun xırman, qaraj və 300 tonluq taxıl anbarı və laboratoriya binası tikilərək istifadəyə verilib.

Məlumat üçün qeyd edək ki, 1980-ci illərdə rayonun tütün sahələrindən orta hesabla 12-17 min ton tütün istehsal edilirdi. Sonralar bu sahəyə maraq olmadığından istehsal həcmi azalmışdı. Son illərdə dövlətin kənd təsərrüfatına göstərdiyi qayğı nəticəsində bu sahə də inkişaf etməkdədir. Belə ki, tütünçülüyü inkişaf etdirmək məqsədilə dünya bazarının təklifinə uyğun olaraq ətirli və qiymətli tütün sortları olan "Berley" və "Verjiniya"nın yetişdirilməsinə üstünlük verilib. Eyni zamanda əvvəlki illərdə istifadəyə verilmiş müasir texnologiyaya əsaslanan 60 ədəd odla tütün qurutmaxanası, 5000 kvadratmetr sahəsi olan anbar binası, 7320 kvadratmetr sahəsi olan şitillik təsərrüfatları tütün istehsalını artırmağa imkan verir.

Rayonda tütünçülüyün inkişaf etdirilməsi və yeni iş yerlərinin açılması ilə bağlı Sahibkarlar Təşkilatları Milli Konfederasiyası ilə danışıqlar aparılmaqla cari ildə rayonda daha çox ətirli tütün növlərinin əkininə üstünlük verilərək tütün sahələrinin genişləndirilməsi həyata keçirilib. Fermerlərin bu sahədəki narazılıqlarının aradan qaldırılması məqsədilə konfederasiya ilə danışıqlar aparılıb və "İntertobacco" şirkətinin əvvəlki illərdən qalmış əməkhaqqı borcları qaytarılıb.

Cari ildə rayonda 1,5 ton barama istehsal edilməsi və gələcəkdə istehsalın artırılması nəzərdə tutulub. Zaqatala rayonu üçün ayrılmış olan 95 qutu baramaqurdu toxumundan mütəxəssis nəzarəti altında inkubasiya edilərək əldə olunan baramaqurdunun 67 nəfər fermerə müqavilə əsasında paylanması təmin edilib. Artıq rayonda kümçülər tərəfindən proqnoz tapşırıqlar bir neçə dəfə artıq yerinə yetirilməklə 6018 kiloqram barama istehsal edilərək "Şəki-İpək ASC"-yə təhvil verilib.

Gələcəkdə istehsalın artırılması məqsədilə cari ilin payız mövsümündə rayonda 146 min 100 ədəd tut tinginin əkilməsi nəzərdə tutulub. Belə ki, bu sahənin rentabelli olması əhali tərəfindən 5-6 il ərzində yem bazasının bərpa edilməsinə və istehsalın gələcəkdə 350 tona çatmasına imkan yaradacaq.

## Turizm potensialından səmərəli istifadəyə diqqət artırılır

Ölkə rəhbəri rayona etdiyi səfərlər çərçivəsində olimpiya idman kompleksinin, aeroportun, "Grata" hotelinin, Mədəniyyət Mərkəzinin, Dədə Qorqud meydanının, Heydər Əliyev Mərkəzinin əvvəlki və yeni binalarının, Heydər parkının, Zərifə Əliyeva parkının açılışında olub.

Ümumilikdə isə ötən dövr ərzində Zaqatalada 15 mədəniyyət müəssisəsi tikilib. Həmçinin 41 müəssisə əsaslı təmir edilib, 28 tarixi abidədə cari və əsaslı təmir işləri aparılıb və 14 xatirə kompleksinin tikintisi həyata keçirilib.

Car, Dardoqqaz, Gözbarax, Çımcımax, Qırğıllı və s. kəndlərdə yeni mədəniyyət müəssisələri tikilib. Danaçı, Maqov, Paşan, Sumaylı, Göyəm, Aşağı Tala, Yuxarı Tala, Kebeloba, Çobankol, Muxax, Qımır, Bazar, Zəyəm, Suvagil, Bəhmədli, Lahıc, Əliabad, Faldar, Mosul, Kəpənəkçi, Qandax, Muğanlı, Beretbinə, Uzuntala kəndlərində mədəniyyət müəssisələri əsaslı və cari təmir olunub. Maddi-texniki bazanın gücləndirilməsi, kadr dəyişikliyi sayəsində uğurlu addımlar atılıb.

Rayon mədəniyyət və turizm şöbəsi 2011-ci ildən Mədəniyyət və Turizm Nazirliyinin Avropa Şurası ilə birlikdə həyata keçirdiyi "Tarixi şəhərlərdə mədəni irsin bərpası layihəsi"ndə iştirak edib və layihənin qalibi olub. Rayon icra hakimiyyəti başçısının təşəbbüsü ilə layihənin icrası istiqamətində bir çox işlər görülüb. Tarixi ərazidə yerləşən pilləkənlər təmir olunub, Dədə Qorqud meydanında, Heydər Əliyev prospektində yerləşən tarixi binaların dam örtüyü, fasad hissəsi dəyişdirilib, yerli materiallar - daş, taxta, kərpicdən istifadə edilərək tarixiliyi bərpa olunub. Bundan başqa, rayonda "Aleksandr Düma Qafqazda", "Babaların zəfər yolu" turizm marşrutları üzrə müxtəlif tədbirlər təşkil edilib.

Son 7 il ərzində rayon səhiyyəsinin inkişafına, səhiyyə obyektlərinin təmir-tikintisinə xüsusi diqqət yetirilib. Belə ki, 2009-cu ildə rayon Mərkəzi xəstəxanası əsaslı təmir edilərək müasir tibbi avadanlıqla təchiz olunmaqla əhalinin istifadəsinə verilib. Paralel olaraq Əliabad qəsəbə xəstəxanasının, kəndlərdəki həkim məntəqələrinin əsaslı və cari təmiri aparılıb.

## Gənclər aparıcı qüvvəyə çevrilir

Müstəqillik əldə olunandan sonra Zaqatala rayonunda da gənclər və idman siyasətinin inkişaf etdirilməsinə xüsusi qayğı ilə yanaşılıb. İdmanın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb.

Zaqatala rayonunda 2 uşaq gənclər idman məktəbi, 1 şahmat məktəbi, olimpiya idman kompleksi, 3500 nəfərlik şəhər stadionu, 125 idman qurğusu var. Bunlardan 71-i sadə idman qurğusu, 1 üzgüçülük hovuzu, 3 trenajor zalı, 1 kompleks idman qurğusu və təhsil ocaqlarında 32 idman zalı fəaliyyət göstərir. Zaqatala rayonunda 20 idman ustası, 28 idman ustalığına namizəd, 50 nəfər I dərəcəli idmançı fəaliyyət göstərir. Beynəlxalq yarışların mükafatçıları 15 nəfərdir. Ümumiyyətlə, rayonda 314 nəfər məşqçi-müəllim idman müəssisələrində çalışır. Burada idmanla məşğul olanların sayı 20 minə yaxındır. Rayonda cüdo, sərbəst güləş, futbol, voleybol, şahmat, basketbol, boks, kyokşinkay karate idman növləri inkişaf etdirilib.





Zaqatala rayonunda dövlət gənclər siyasəti və idmanın inkişafı sahəsində 2010-2016-cı illər ərzində bir çox nailiyyətlər əldə edilib. İl ərzində müxtəlif mədəni-kütləvi tədbirlər, idman yarışları və digər tədbirlər həyata keçirilib.

Gənclərin məşğulluğunun təmin edilməsi məqsədilə 28 iyun-31 iyul 2013-cü il tarixlərində Gənclər və İdman Nazirliyi və Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu tərəfindən "Rayonlarda gənclərin peşə təhsilinin təşkili" layihəsi çərçivəsində ofis və kadrlar üzrə menecer, mühasibatlıq uçotu, geyimlərin biçmə-tikilməsi və modelləşdirilməsi, kişi və qadın saç ustası, aparat kosmetologiyası və vizaj peşələri üzrə təlim kurslarının keçirilməsi təşkil olunub. Kurslarda 70 nəfər gənc iştirak edib. Kursu bitirmiş gənclərə Gənclər və İdman Nazirliyi tərəfindən sertifikatlar təqdim olunub.

2011-2014-cü il tarixlərində Azərbaycan gənclərinin VI-VII forumları çərçivəsində Zaqatala şəhər Mədəniyyət evində Zaqatala gənclərinin VI-VII toplantıları keçirilib və Respublika Gənclər Forumuna fəal gənclər seçilib. Ötən forumdan bu foruma qədər görülmüş işlər barədə hesabatlar verilib, ötən dövr ərzində nailiyyətlər əldə etmiş gənclər qiymətli hədiyyələrlə və fəxri diplomlarla mükafatlandırılıblar. Keçirilən tədbirlərdə 540 nəfər gənc iştirak edib.

## Təhsil sistemi: uğurlar da var, ona uyğun mükafat da...

Respublikamızın hər yerində olduğu kimi, Zaqatala rayonunda da təhsilin inkişafına hər zaman xüsusi diqqət yetirilib. 1991-ci ildən keçən dövr ərzində Heydər Əliyev Fondu, Təhsil Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Neft Fondu və Zaqatala Rayon İcra Hakimiyyəti tərəfindən 21 məktəb binası əsaslı təmir edilib. 42 məktəb binası isə yenidən inşa olunaraq istifadəyə verilib. Xüsusən qeyd etmək lazımdır ki, məktəblərin tikinti və təmiri 2009-cu ildən sonra daha geniş vüsət alıb. Belə ki, son 7 ildə rayonda 30 məktəb binası tikilərək istifadəyə verilib. 12 məktəb binası isə əsaslı təmir olunub. 2009-cu ildən başlayaraq Zaqatala Rayon İcra Hakimiyyəti tərəfindən 8 məktəb binası əsaslı təmir edilib və 4 yeni məktəb binası tikilərək isifadəyə verilib.

2012-ci il may ayının 7-də baş vermiş məlum zəlzələ nəticəsində rayonun 23 məktəbi qəzalı vəziyyətə düşüb, 6 məktəb binasında isə ciddi əsaslı təmirə ehtiyac yaranıb. Fövqəladə Hallar Nazirliyi və Zaqatala Rayon İcra Hakimiyyəti tərəfindən qısa zamanda həmin məktəb binaları tikilərək istifadəyə verilib və digər məktəblərdə əsaslı təmir işləri aparılıb.

Təsadüfi deyil ki, son illərdə qəbul imtahanlarında 600-dən çox bal toplayan şagirdlərin sayı son 7 ildə əvəlki illərlə müqayisədə nəzərəçarpacaq dərəcədə artıb. Eyni zamanda rayon rəhbərliyi tərərfindən görülən məqsədyönlü tədbirlər nəticəsində yüksək bal toplayan şagirdlərin motivasiyasının artırılması məqsədilə qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Son illərdə respublika fənn olimpiadalarında və müxtəlif müsabiqələrdə, intellektual oyunlarda iştirak edən və uğur qazanan şagirdlərin də sayı artıb. Şagirdlər fənn olimpiadalarında qızıl medala layiq görülüblər. Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən "Breyn Rinq", "Əlaçı" intellektual oyunlarında Zaqatala komandası respublika çempionu olub. Eyni zamanda müəllimlər də müxtəlif müsabiqələrdə iştirak edərək yüksək nəticələr qazanıblar.

Rayonda qazanılmış uğurların son illərdə əvəlki illərlə müqayisədə yaxşılaşması bu yöndə aparılan ardıcıl işlərin nəticəsi kimi dəyərləndirilməlidir.

## Multikulturalizm məkanı nümunə göstərir

İnsanların sosial və mədəni tələblərinin həll olunması, rayonda çoxsaylı təhsil ocağının və məktəbəqədər təhsil müəssisələrinin tikilməsi, rayon mərkəzindən başlamış ən ucqar kəndlərə kimi görülən işlərin düzgün istiqamətləndirilməsi, xüsusən təhsil məsələlərinə diqqət və qayğı, ali məktəblərə qəbul olunmuş tələbələrlə görüşü və yüksək bal toplamış şagirdlərin hədiyyələrlə təltif olunması Zaqatala Rayon İcra Hakimiyyəti başçısının effektiv iş üslubunun göstəricisi kimi qiymətləndirilir.

Multikulturalizm və tolerantlığın mərkəzi sayılan Azərbaycanın mədəni zənginliyini şərtləndirən milli azlıq və etnik qrupların mədəni irsinin, adət-ənənələrinin qorunması məqsədilə müxtəlif illərdə keçirilmiş incəsənət festivallarında rayonun avar, saxur və ingiloyların "Ceyranım", "Lilay", "Hudulki", "Alazan" xalq və özfəaliyyət kollektivləri fəal iştirak edərək fəxri fərman və hədiyyələrlə təltif olunublar. 2015-ci ildə Şəkidə keçirilən beynəlxalq "İpək yolu" festivalında hər üç xalqın nümayəndələrindən ibarət kollektivlər uğurla çıxış ediblər.

25 il ərzində Zaqatalada həyata keçirilmiş sosial-iqtisadi, mədəni, ictimai və siyasi tədbirlərdən bir qismi haqqında söz açdıq. Zəngin tarixi abidələri, qədim adət-ənənələri, çoxmillətli, çoxmədəniyyətli folkloru, güclü turizm potensialı olan rayonun mədəniyyətinin və turizminin inkişafı istiqamətində aparılan işlər hər bir Zaqatala vətəndaşını sevindirir, onlar Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə inteqrasiya etməsi sahəsində həyata keçirilən hər bir işdə öndə olmağa çalışırlar, tolerantlıq, multikulturalizm, dövlətçilik dəyərlərini daim qoruyurlar.

Məqaləni Prezident İlham Əliyevin rayona səfəri zamanı Zaqatala haqqında dediyi aşağıdakı fikirlərlə bitiririk: *"Bu gün Zaqatalada gördüklərim məni ürəkdən sevindirir. Mən çox şadam ki, rayon çox dinamik inkişaf edir və hər şey burada yüksək səviyyədədir".*

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***